

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 175 (21.585)

20 sentyabr 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika




Sentyabrın 19-da Bakıda Heydər Əliyev adına neft emalı zavodunun yenidən qurulması layihəsi çərçivəsində yeni bitum istehsalı qurğusunun təməlqoyma mərasimi olub.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev Prezident İlham Əliyevə yeni bitum istehsalı qurğusunun inşası və Heydər Əliyev adına neft emalı zavodunda aparılacaq yenidənqurma layihəsi çərçivəsində görüləcək işlər barədə ətraflı məlumat verib. Qeyd edilib ki, Heydər Əliyev adına neft emalı zavodunda inşa ediləcək yeni bitum istehsalı qurğusunun illik istehsal gücü 400 min ton olacaq. Bu qurğuda "EN 40/60" markalı yol bitumu istehsal ediləcək və qurğunun 2018-ci ilin ortalarında istismara veriləcəyi gözlənilir.

Prezident İlham Əliyev Heydər Əliyev adına neft emalı zavodunun yenidən qurulması layihəsi çərçivəsində yeni bitum istehsalı qurğusunun təməlini qoyub.

Dövlətimizin başçısına məlumat verilib ki, son vaxtlarda 80-dən çox müasir texnika alınaraq ölkəyə gətirilib. Müxtəlif texnoloji nəqliyyat vasitələrindən, traktor-maşın mexanizmlərindən və stasionar güc aqreqatlarından ibarət olan bu avadanlıqlar neft və qazın hasilatının sabit saxlanmasına, quyuların yeraltı əsaslı və cari təmirinə geniş imkanlar yaradır, onlar uğurla sınaqdan çıxarılıb.

Zavodun kollektivi ilə görüşən Prezident İlham Əliyev çıxış edib.

## T.E.Həsənovun Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini-Penitensiar Xidmətin rəisi təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Tofiq Etibar oğlu Həsənov Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini-Penitensiar Xidmətin rəisi təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 19 sentyabr 2016-cı il*

## Yeni yaşayış binasının inşası davam etdirilir

*Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı bütün sahələri əhatə edir. Son illərdə nəzərəçarpan dəyişikliklərdən biri də muxtar respublikanın şəhər və qəsəbələrindəki yaşayış binalarının yenidən qurulması və yeni yaşayış komplekslərinin yaradılmasıdır.*



Paytaxt Naxçıvan şəhəri də ildən-ilə dəyişir, yeni tikililər, abadlaşan küçə və prospektlər şəhərin simasına məxsusi gözəllik gətirir. Naxçıvan şəhərinin ən gözəl ünvanı olan Heydər Əliyev prospekti isə son dövrlərdə fərqli memarlıq quruluşuna xas yeni ünvanları ilə diqqəti cəlb edir. Belə obyektlərdən biri də hazırda inşası davam etdirilən zirzəmi ilə birlikdə səkkizmərtəbəli yaşayış binasıdır. Binanın təməli 2015-ci ilin may ayında qoyulub. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən ötən dövrdə binada hörgü işləri başa çatdırılıb, dam örtüyü vurulub, daxildə suvaq işləri yekunlaşdırılıb. Hazırda binanın fasadı üzlük travertin daşla üzlənir. Yaşayış binası hazır olduqdan sonra zirzəmi hissədə 210 kvadratmetrlik anbar və foye yerləşəcək. Birinci mərtəbədə isə mağazalar fəaliyyət göstərəcək. Digər mərtəbələrin hər birində isə bir mənzil yerləşməklə bina 6 mənzilli olacaq. 220 kvadratmetrlik mənzillərin hər birində üç yataq otağı, bir salon, foye və mətbəx yerləşəcək. Müasir üslubda inşa edilən binada hər mənzilin üç eyvanı olacaq.

Qeyd edək ki, milli memarlıq ənənələrinin müxtəlif elementlərini özündə əks etdirən bina Naxçıvan şəhərinə xüsusi gözəllik verəcək.

**Xəbərlər şöbəsi**

## Heydər Əliyev Muzeyini ziyarət edənlərin sayı on bir min nəfərdən çox olub



*Bu ilin 8 ayında Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyini ziyarət edənlərin sayı 11 min 550 nəfərdən çox olub. Bunlardan 1531-i 23 xarici ölkədən gələn vətəndaşlardır.*

Muzeydəki 4 min 617 eksponatın hər biri ayrı-ayrılıqda elmi-tədqiqat mövzusudur. Muzeyin kitabxana fondunda 589 adda 1202 kitab var. Azərbaycanın müasir dövlətçilik tarixi və ümummilli liderin siyasi irsi ilə maraqlanan hər kəs Heydər Əliyev Muzeyinə üz tutur, tədqiqatçılar burada elmi axtarışlar üçün dəyərli məlumatlar əldə edirlər.

Yanvar-iyul aylarında muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili məktəblərinin tələbələrinin, həmçinin orta məktəblərin şagirdlərinin iştirakı ilə muzeydə 72 açıq dərs keçilib. Ulu öndər Heydər Əliyevin siyasi irsinin təbliği məqsədilə keçilən açıq dərslərdən sonra iştirakçılar muzeyin ekspozisiyası ilə də tanış olublar.

Bu dövrdə Heydər Əliyev Muzeyinə 445 ekskursiya təşkil olunub. Muzeyin internet səhifəsini isə 33 min 88 nəfər ziyarət edib.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda mədəni-kütləvi tədbirlərin əhatə dairəsi genişlənir

***Muxtar respublikada mədəni-kütləvi tədbirlərin keçirilməsi avqust ayında da diqqətdə saxlanılmış, kitabxanaların və muzeylərin fəaliyyətinə diqqət artırılmışdır. Ordubad rayonunda kitabxana işi ilə bağlı zona müşavirəsi keçirilmişdir.***

Ötən ay kitabxanalarda, ümumilikdə, 41 tədbir və 19 sərgi keçirilmiş, kitabxanalara 42 adda 44 nüsxə çap məmulatı paylanılmış, yeni oxucu sayı 161 nəfər, oxucu gəlişi 4896 nəfər, kitab verilişi 23 min 576 ədəd olmuşdur. Ötən ay muxtar respublikadakı muzeyləri 4695 xarici ölkə vətəndaşı olmaqla, ümumilikdə, 24 min 172 tamaşaçı ziyarət etmişdir. Bu dövrdə muzey fondlarının yeni eksponatlarla zənginləşdirilməsi sahəsində də işlər görülmüş, muzey fondlarına 302 ədəd eksponat daxil edilmişdir. Muzey bələdçilərinin peşə biliklərinin artırılması, təcrübə mübadiləsinin aparılması məqsədilə Dövlət Bayrağı Muzeyində seminar-treninq keçirilmiş, "Əlincəqala" Tarix-Mədəniyyət və Bəhruz Kəngərli muzeylərinin bukletləri hazırlanaraq nəşr olunmuşdur. Bununla yanaşı, Şahbuz, Culfa, Şərur, Kəngərli Rayon Tarix-Diyarşünaslıq muzeylərində və Naxçıvan Dövlət Tarix Muzeyində 60-dan çox eksponatın üzərində olan yazılar, eləcə də Gəmiqaya Tarix Bədii Qoruğunun ərazisində 1290 qayaüstü təsvir öyrənilərək qısa təsvirləri hazırlanmışdır.

Əhalinin yay istirahətinin təşkili istiqamətində işlər davam etdirilmiş, Bəhruz Kəngərli adına Rəssamlar Parkında Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının, Möminə xatın türbəsinin qarşısında Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestrinin konsertləri olmuş, Kəngərli rayonunda "Xalq yaradıcılığı günü" keçirilmişdir. "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən "Çörək" festivalında isə Naxçıvana məxsus çörək növlərinin hazırlanması və sərgi-satışı təşkil edilmişdir. "Tətbiqi sənət və rəsm əsərləri, tarix və mədəniyyətimizlə bağlı müxtəlif növ çap məhsullarının satış mərkəzi"ndə isə 42 adda 112 ədəd əl işi satılmışdır.

Muxtar respublikanın turizm potensialının öyrənilməsi və təbliği sahəsində işlər də davam etdirilmişdir. Naxçıvan Turizm İnformasiya Mərkəzi tərəfindən "Facebook" sosial şəbəkəsində 165 məlumat, "Youtube" videoportalında isə 57 videoçarx yerləşdirilmiş, mərkəzdə olan 97 xarici ölkə vətəndaşının müraciəti cavablandırılmışdır. Mərkəzin "Facebook" sosial şəbəkəsindəki səhifəsinə 10 min 154, "Youtube" videoportalındakı səhifəsinə 8475 baxış olmuşdur. Mərkəzin saytında turist qəbul edən 37 kənd evi haqqında məlumat da yerləşdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## Muxtar respublikada payız suvarma mövsümünə hazırlıq görülür

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi tərəfindən avqust ayında payız suvarma mövsümünə hazırlıqla əlaqədar tədbirlər görülmüş, 4,7 kilometr magistral kanal, 44 kilometr ara arxları, 2,13 kilometr kollektor lildən təmizlənmişdir. Yaşayış məntəqələrini və əkin sahələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə 2,64 kilometr məsafədə selə qarşı istiqamətləndirici bənd salınmışdır.***

Mütərəqqi suvarma metodlarının tətbiqi sahəsində görülən tədbirlər ötən ay da davam etdirilmişdir. Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərinin ərazisini əhatə edən 107 hektar sahədə qapalı suvarma şəbəkəsi tikilmiş, müxtəlif diametrli borularla 2380 metr boru xətti quraşdırılmışdır. Babək rayonunun Kültəpə kəndinin torpaq sahələrinin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq üçün görülən işlər isə davam etdirilir. Bundan başqa, Şahbuz rayonunun Kükü kəndindəki "Qanlı göl" su anbarının suburaxıcı qülləsində əsaslı təmir işlərinə başlanmışdır.



Muxtar respublikanın müxtəlif yaşayış məntəqələrində avqust ayında 2,8 kilometr yeni içməli su xətti çəkilmiş, 6 kəhrizdə təmir-bərpa işləri davam etdirilmişdir. Həmçinin suvarma və içməli su mənbəyi kimi istifadə olunan 79 subartezian quyusunda təmir işləri aparılmış, Şərur rayonunun Qarxun kəndində 1 ədəd yeni subartezian quyusu qazılaraq istismara verilmişdir. "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində Babək rayonunun Şıxmahmud kəndində müxtəlif diametrli borularla 2660 metr kanalizasiya və 7014 metr su xətti çəkilmişdir. Ordubad şəhərində isə müxtəlif diametrli borularla 275 metr su və 2117 metr kanalizasiya xətti çəkilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

# “Əsrin müqaviləsi” Azərbaycanın iqtisadi müstəqilliyinin, sürətli sosial-iqtisadi inkişafının əsasını qoymuşdur

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış yeni neft strategiyasının təməli sayılan “Əsrin müqaviləsi”nin imzalanmasından 22 il ötür. “Əsrin müqaviləsi” Azərbaycanın müstəqil dövlət kimi öz sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını müdafiə etmək əzmində olduğunu təsdiqləyən tarixi sənəddir. Ulu öndər Heydər Əliyev dühasının məhsulu olan uğurlu neft strategiyasının həyata keçirilməsi nəticəsində artan neft gəlirləri əsasında yaradılmış möhkəm maliyyə-iqtisadi baza qeyri-neft sektorunun dinamik inkişafına da təkan vermişdir. Bu gün Azərbaycanın enerji siyasəti regional müstəvidən çıxaraq qlobal müstəviyə yüksəlmişdir. Azərbaycan neft-qaz ixrac edən ölkə kimi dünya birliyi üçün etibarlı tərəfdaşa, enerji təhlükəsizliyi məsələlərində isə fəal subyektə çevrilmişdir.*



Azərbaycanda neft hasilatı 150 illik tarixə malik olsa da, xalqımız yalnız XX əsrin sonlarında, müstəqillik qazandıqdan sonra bu sərvətdən bəhrələnmək imkanı əldə etmişdir. Bu imkanı isə ulu öndər Heydər Əliyev reallığa çevirmişdir. Hələ Sovetlər Birliyi dövründə Azərbaycana rəhbər seçildiyi ilk günlərdən başlayaraq neft sənayesinin inkişafına xüsusi diqqət göstərən uzaqgörən lider respublikamızda nəhəng neft infrastrukturu formalaşdırmaqla gələcək neft strategiyasının əsasını qoymuşdur. Buna görədir ki, XX əsrin 70-80-ci illəri Azərbaycan neft sənayesinin sürətli inkişaf dövrü kimi tarixə düşmüşdür. Həmin illərdə dəniz yataqlarının işlənilməsi üçün qazma qurğuları, suda tikinti işlərini aparmaq üçün xüsusi gəmilər, texnika və avadanlıq alınmış, Bakı Dərin Dəniz Özülləri Zavodu kimi nəhəng strateji istehsalat qurğusu tikilmişdir. Bununla yanaşı, neft emalı, neftkimya sənayesi və neft maşınqayırmasının inkişafında böyük irəliləyişlər olmuşdur.

Xəzərdə planlı surətdə geoloji-kəşfiyyat işlərinin təşkili və həyata keçirilməsi də ulu öndərin misilsiz tarixi xidmətlərindəndir. Bu gün qətiyyətlə demək olar ki, həmin illərdə iqtisadiyyatın bütün sahələrində olduğu kimi, neft sənayesində də ümummilli liderimizin gördüyü işlər onun gələcəyə hesablanmış planlarının – Azərbaycanı müstəqil dövlətə, iqtisadiyyatımızı qlobal layihələrə və xalqımızı rifaha doğru aparmaq niyyətinin əsasını təşkil edirdi.

Məhz həmin dövrdə böyük uzaqgörənliklə yaradılan neft infrastrukturu, kəşf edilən yataqlar 20-25 il sonra müstəqil Azərbaycanın gələcəyi üçün əvəzsiz əhəmiyyəti olan neft müqavilələrinin imzalanmasında baza rolunu oynadı. Eyni zamanda danılmaz həqiqətdir ki, yenicə müstəqillik əldə etmiş, iqtisadiyyatı böhran içində olan, müharibə şəraitində yaşayan bir ölkənin aparıcı dövlətlərin diqqətini belə bir nəhəng layihəyə cəlb edə bilməsi beynəlxalq aləmdə Heydər Əliyev şəxsiyyətinə böyük hörmətin və dahi şəxsiyyətin parlaq diplomatiyasının nəticəsi idi.

1993-cü ildə Azərbaycanda ikinci dəfə ali hakimiyyətə qayıdan ulu öndərimizin xilaskarlıq missiyasının əsas hədəflərindən biri də o zamana qədərki xaos və anarxiya mühitində məhv olmuş iqtisadiyyatı yenidən canlandırmaq, insanları düçar olduqları maddi çətinliklərdən xilas etmək idi. Azərbaycanın öz müstəqilliyini qoruyub saxlamaq və müstəqil iqtisadi siyasət yeritmək üçün lazım olan iqtisadi və hərbi güc qədər ağıl və zəkaya, cəsarət və iradəyə də ehtiyacı var idi. Qarşıda ölkənin iqtisadi təhlükəsizliyini zəmanət altına almaq, uzunmüddətli iqtisadi və sosial inkişaf strategiyasını işləyib hazırlamaq və Azərbaycan neftinin dünya bazarına nəql olunması üçün yeni ixrac marşrutları üzrə tərəfdaşlar tapmaq kimi taleyüklü vəzifələr dayanırdı.

Müasir Azərbaycanın iqtisadi inkişafında, onun dünya müstəvisində öz sözünü deyə biləcək bir güc əldə etməsində mühüm rola malik “Əsrin müqaviləsi”ni reallaşdırmaq bu baxımdan çox böyük cəsarət, təcrübə və qətiyyət tələb edirdi. O dövrdə bütün təzyiqlərə baxmayaraq, reallaşdırılan bu böyük layihənin gələcəyini ulu öndər Heydər Əliyev hamıdan yaxşı görür, bu istiqamətdə mühüm tədbirlər həyata keçirirdi. 1994-cü ilin 20 sentyabrında XX əsrin ən böyük iqtisadi layihələrindən olan, tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə “Əsrin müqaviləsi” adı ilə bütün dünyada məşhurlaşan sazişin imzalanması və onun gerçəkləşməsi Azərbaycanı davamlı inkişaf yoluna çıxardı. Ümummilli liderimizin gərgin əməyi sayəsində Azərbaycanın Xəzər sektorunda yerləşən “Azəri”, “Çıraq”, “Günəşli” neft yataqlarının birgə istifadəsini nəzərdə tutan bu kontrakt dünyada məşhur olan bir çox neft şirkətləri ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında 30 il müddətinə imzalanmışdır.

“Əsrin müqaviləsi” düzgün siyasətin, gərgin əməyin bəhrəsi idi. Uzun sürən danışıqların müvəffəqiyyətlə yekunlaşmasında o zaman Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsində çalışan cənab İlham Əliyevin misilsiz xidmətləri olmuşdur. Həmin dövrdə bəzi transmilli neft şirkətləri Azərbaycanın düşdüyü çətin durumdan istifadə edərək neft kontraktlarını öz mənafelərinə uyğun imzalamağa çalışır, ölkə üçün qəbuledilməz şərtlər irəli sürür, neft istehsalına Xəzərin statusu müəyyənləşdikdən sonra başlanılması şərtini qoyurdular. Lakin bu, Azərbaycanın siyasi və iqtisadi maraqlarına uyğun deyildi. Həmin vaxt Dövlət Neft Şirkətinin vitse-prezidenti kimi cənab İlham Əliyev iri neft korporasiyalarının rəhbərləri ilə çoxsaylı görüşlər keçirmiş, xalqımızın milli maraqlarına uyğun müqavilənin imzalanması üçün gərgin əmək sərf etmişdir.

Tarixi neft sazişi 1994-cü ilin dekabrında Azərbaycan Respublikasının Milli Məclisində ratifikasiya olunaraq qüvvəyə minmişdir. Bununla da, yeni neft strategiyası və doktrinasının uğurla həyata keçirilməsinə start verilmişdir. Dərin bir inam və uzaqgörənliklə işlənib hazırlanan bu böyük layihə özünü tamamilə doğrultmuş, təkcə iqtisadi nəticələrinə görə deyil, həm siyasi, həm də sosial rifah mülahizələri baxımından əsl təməl rolunu oynamışdır.

“Əsrin müqaviləsi”nin imzalanması ilə Xəzər dənizi hövzəsində və bütün postsovet məkanında beynəlxalq əməkdaşlığın bünövrəsi qoyulmuşdur. Bu saziş regionda digər qlobal layihələrin gerçəkləşdirilməsi üçün də imkan yaratmış, Xəzərdə maraqları təmin olunmuş bir çox aparıcı Qərb dövlətlərinin Azərbaycanla bütün sahələrdə genişmiqyaslı əməkdaşlığa marağını artırmış, beynəlxalq maliyyə qurumları ilə münasibətlərdə keyfiyyətcə tamamilə yeni bir mərhələnin əsasını qoymuşdur. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: ***“Əsrin müqaviləsi” məhz Azərbaycanın dövlət müstəqilliyinin əldə olunmasından irəli gəlmiş tarixi hadisədir. Biz sübut etdik ki, Azərbaycan etibarlı tərəfdaşdır. Biz sübut etdik ki, Azərbaycana xarici sərmayənin gəlməsi və istifadə olunması üçün burada bütün imkanlar yaradılıbdır. Biz sübut etdik ki, Azərbaycana gələn hər bir iş adamı, şirkət, vətəndaş burada azad, sərbəst, rahat işləyə və yaşaya bilər. Biz bu müqaviləni imzaladıq və sübut etdik ki, Azərbaycan xalqının milli mənafeləri üçün çalışırıq və ona görə də bu cür nailiyyətləri əldə etməyə qadirik”.***

“Əsrin müqaviləsi”nin mühüm tərkib hissələrindən birini də xarici şirkətlərlə birlikdə hasil olunan neftin nəqlini və xarici bazarlara ixracını təmin edəcək çoxvariantlı boru nəqliyyat infrastrukturunun yaradılması təşkil edir. “Əsrin müqaviləsi” imzalandıqdan cəmi üç il sonra (1997-ci il) ilk neft hasil olunmuş, beş il sonra (1999-cu il) isə mənfəət nefti ixrac olunmağa başlanmışdır. Bundan sonra qarşıda duran əsas vəzifələrdən biri, həm də ən mühümü çıxarılan nefti xarici bazarlara çatdırmaq üçün neft kəmərlərinin inşası idi. Məlum olduğu kimi, müqavilə imzalanarkən bu məsələ ətrafında gedən müzakirələr zamanı xam neftin ixracı üçün ilkin olaraq Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərləri marşrutları seçilmişdi. Buna baxmayaraq, gələcəkdə neft hasilatının artması ilə əlaqədar əsas ixrac boru kəmərinə ehtiyac duyulurdu. Ümummilli liderimiz Heydər Əliyev bu məsələdə qətiyyət nümayiş etdirərək Azərbaycan neftini Aralıq dənizi vasitəsilə dünya bazarlarına çıxarmaq üçün Bakı-Tbilisi-Ceyhan boru kəməri ideyasını irəli sürmüşdür. Bu ideyanı qəbul etmək istəməyən bəzi qüvvələrin cəhdlərinə baxmayaraq, dahi şəxsiyyət Heydər Əliyevin səyi nəticəsində bu layihə həyata vəsiqə almışdır. Belə ki, ATƏT-in 1999-cu il noyabr ayının 18-də İstanbul şəhərində keçirilən sammiti zamanı Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilişi ilə bağlı bəyannamə imzalanmışdır.

Beləliklə də, “Üç dənizin əfsanəsi” adlandırılan və minilliyin ən böyük neft ixrac marşrutlarından sayılan Bakı-Tbilisi-Ceyhan layihəsinin reallığa çevrilməsi üçün hüquqi baza yaradılmışdır. 2005-ci ilin aprel ayında tikinti işləri yekunlaşdırılmışdır. Həmin il may ayının 25-də Səngəçal terminalında xam neftin əsas ixrac boru kəmərinə vurulması ilə bağlı rəsmi tədbir keçirilmişdir. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatmışdır. İyulun 4-də isə neftlə yüklənmiş ilk tanker buradan yola salınmışdır. 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirilmişdir.

Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşması xalqımızın böyük oğlu Heydər Əliyevin neft strategiyasının ikinci böyük təntənəsi idi. “Əsrin müqaviləsi” Azərbaycanın iqtisadi və siyasi müstəqilliyinin məhək daşına çevrilməklə azad iqtisadi mexanizmlərin tətbiqini, dünya iqtisadiyyatına dinamik inteqrasiyanı təmin edərək ölkəmizin inkişafında müstəsna əhəmiyyətə malik olmuşdur. Neftdən gələn gəlirlər sayəsində maliyyələşən daxili investisiyaların artımı hesabına iqtisadiyyatda tarazlı inkişaf təmin edilmiş, yüz minlərlə yeni iş yerləri açılmışdır. Ölkəmizin ilbəil artan büdcə gəlirləri sosial sahələrin inkişafına imkan vermişdir. Təhsilə və səhiyyəyə, eləcə də cəmiyyət həyatının digər sahələrinə yönəldilən vəsaitlər neft gəlirlərindən səmərəli istifadənin göstəriciləridir. Artıq ölkəmiz region dövlətləri arasında istər iqtisadi, istər siyasi, istərsə də hərbi cəhətdən qüdrətli dövlətə çevrilmişdir.

Müstəqil Azərbaycanın yüksəliş prosesinin tərkib hissəsi olan neft strategiyası xalqımızın yaşayış səviyyəsinin yüksəlməsinə hesablanmışdır. Prezident İlham Əliyev bu barədə demişdir: ***“Əsrin müqaviləsi” imzalanmasaydı, təbii ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri inşa olunmazdı, Bakı-Tbilisi-Ərzurum qaz kəməri çəkilməzdi və bu gün biz “Şahdəniz” yatağından qaz hasilatına nail ola bilməzdik. Böyük maraq doğuran TANAP, TAP, “Cənub” qaz dəhlizi ilə bağlı müzakirələr aparılmazdı. İndi Azərbaycanın enerji inkişafına istənilən nöqteyi-nəzərdən yanaşsaq, görərik ki, neft və qaz ölkə əhalisinin rifahına xidmət edir. Bu təbii sərvətlərdən əldə olunan gəlir ədalətlə bölünür ki, bu da əhalinin sosial müdafiəsinin etibarlı təminatı üçün başlıca amildir... Azərbaycan nefti, Azərbaycanın təbii sərvətləri Azərbaycan xalqının xidmətindədir və bu əsas məqsəddir”.***

Bu gün ölkəmizin dinamik sosial-iqtisadi inkişafı, bu inkişaf tempinə görə böyük uğurlar qazanması, öz milli maraqlarını müvəffəqiyyətlə təmin etməyə qadir bir dövlət kimi müstəqil siyasət yürüdə bilməsi, iri layihələrin reallaşdırılması, büdcə gəlirlərinin ildən-ilə əhəmiyyətli dərəcədə artması ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliklə əsasını qoyduğu neft strategiyası sayəsində mümkün olmuşdur.

Ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında həyata keçirilən möhtəşəm quruculuq tədbirləri də ulu öndərin neft strategiyasının uğurla davam etdirilməsinin nəticəsidir. Muxtar respublikada həyata keçirilən ardıcıl islahatlar bu qədim diyarın sosial-iqtisadi mənzərəsini kökündən dəyişmiş, iqtisadi və sosial sahələrdə baş verən dəyişiklikləri xarakterizə edən makroiqtisadi göstəricilər ilbəil yüksəlmişdir. Son illər muxtar respublikada müasir infrastruktur qurulmuş, yeni müəssisələr yaradılmış, iş yerləri açılmış, iqtisadi potensial gücləndirilmiş, quruculuq işləri geniş vüsət almışdır. Muxtar respublikada ərzaq və enerji təhlükəsizliyi tam təmin olunmuşdur. Yeni elektrik stansiyalarının istifadəyə verilməsi, təbii qazla təminat insanların rahatlığına xidmət etməklə yanaşı, həm də iqtisadiyyatın kompleks inkişafına səbəb olmuşdur. Təbii ki, əldə olunan bu sosial-iqtisadi yüksəliş düzgün idarəetmənin nəticəsi olmaqla yanaşı, həm də “Əsrin müqaviləsi”ndən başlanan inkişaf yolunun bəhrələridir.

**“Şərq qapısı”**

## Muxtar respublikada sosial qayğıya ehtiyacı olanlar diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi avqust ayında işaxtaran və işsiz vətəndaşların münasib işlə təmin olunması məqsədilə aktiv məşğulluq tədbirlərini davam etdirmişdir. Bu dövrdə 213 nəfər məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə göndərilmiş, 27 nəfər müvafiq peşə kurslarına, 40 nəfər haqqıödənilən ictimai işlərə cəlb edilmiş, 5 nəfər isə kəndlərdə xidmət mərkəzlərində müvafiq işlə təmin olunmuşdur. İşlə təmin olunan, ictimai işlərə və peşə kurslarına cəlb olunanlardan 11-i məhdud fiziki imkanlı, 5-i hərbi xidmətdən yeni tərxis olunan şəxslərdir. Bu dövrdə qeyri-formal məşğulluğun qarşısının alınması, işə götürülən şəxslərlə əmək müqaviləsinin bağlanması, onlara verilən əməkhaqqının reallığı əks etdirməsi ilə bağlı 55 obyektdə yoxlama aparılmışdır. Naxçıvan Regional Peşə Tədris Mərkəzində isə əmək bazarının tələbləri nəzərə alınaraq müxtəlif peşə sahələri üzrə kurslar təşkil olunmuşdur.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə və təhsilə inteqrasiyası diqqət mərkəzində saxlanılır. Bu məqsədlə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində bu kateqoriyadan olan uşaqların müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərinin artırılması üzrə məşğələlərin təşkili, müxtəlif sosial xidmətlərin göstərilməsi davam etdirilmişdir. Təlimlərə, ümumilikdə, 124 uşaq cəlb olunmuşdur.

Avqust ayında tənha yaşayan və başqasının yardımına ehtiyacı olan 452 ahıl və fiziki imkanları məhdud şəxslərə evlərində, həmçinin 16 nəfərə Ahıllar evində stasionar sosial xidmət göstərilmiş, Naxçıvan Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 20 şəxsin, Naxçıvan Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 43 uşağın müalicəsi təşkil edilmiş, eyni zamanda 31 nəfərə sanatoriya və pansionatlara göndəriş verilmiş, 13 nəfər texniki reabilitasiya vasitəsi ilə təmin olunmuş, 1 nəfərin sosial məişət şəraitinin yaxşılaşmasına, 3 nəfərin respublika daxilində müalicəsinə maddi köməklik göstərilmişdir. Sosial qayğıya ehtiyacı olan 4 nəfər Azərbaycan Vətən Müharibəsi iştirakçısına yeni mənzillər və Azərbaycan Vətən Müharibəsi iştirakçısı olan 2 nəfərə isə “NAZ Lifan-320” markalı minik avtomobilləri təqdim edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Nümunəvi təhsil ocağının uğurları artır

*Ümummilli liderimiz Heydər Əliyev doğma Naxçıvan haqqında daim düşünür və deyirdi: **"İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin".** Bu gün hər bir naxçıvanlı böyük fəxr hissi ilə deyə bilər ki, dahi rəhbərin arzu və istəkləri bu qədim diyarda sonsuz məhəbbətlə həyata keçirilib və keçirilməkdədir. Odur ki hər bir naxçıvanlı belə məmləkətdə yaşamaqdan, yaratmaqdan qürur hissi duyur. Belə hissləri fəxrlə ulu öndərin adını daşıdığı məktəbin kollektivi də yaşayır. Bir qədər geriyə qayıdaq.*




2004-cü il sentyabrın 2-si. Muxtar respublika sakinlərinin yaddaşında uzun müddət yaşayacaq unudulmaz bir tarix. Həmin gün Naxçıvan şəhərində müstəqil Azərbaycanın memarı və qurucusu, ulu öndər Heydər Əliyevin adını daşıyan təhsil ocağının möhtəşəm binası istifadəyə verildi. Bu, sadəcə, bir məktəb binasının istifadəyə verilməsi deyildi, ümummilli liderimizin təşəbbüsü ilə tikilən və onun adına ucaldılan bir abidənin açılışı idi. Açılış mərasimində iştirak edən dövlət başçısının dediyi: ***"Bu məktəb çox yüksək səviyyədə tikilmiş və ən müasir dünya standartlarına cavab verir. Bu həm memarlıq baxımından gözəl binadır, eyni zamanda burada yüksək səviyyədə təhsil almaq üçün hər cür şərait vardır. Bu məktəbin tikintisi xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanıb. Heydər Əliyev bu məktəbin tikintisinə çox böyük diqqətlə yanaşırdı, istəyirdi ki, bu təhsil ocağı Azərbaycanda bir nömrəli məktəb olsun"*** tövsiyəsi pedaqoji kollektivin məsuliyyətini daha da artırıb.

Bəli, 12 ildir ki, məktəbin kollektivi təhsil ocağında ölkə Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyələrinə əməl edərək milli təhsilimizin tərəqqisi naminə çalışır, müstəqil dövlətimizin gələcəyi üçün bilikli, vətənpərvər, müstəqilliyimizin keşiyində durmağı vətəndaşlıq borcuna çevirən gənclər yetişdirilməsi üçün bütün imkanlarını səfərbər edir. Məktəbin müəllimləri unutmurlar ki, burada görülən hər bir iş ulu öndərin adına, Onun ideyalarına layiq olmalıdır. 12 il ərzində məktəbi yüksək qiymətlərlə bitirənlərdən fərqlənmə attestatı, qızıl və gümüş medal alan məzunlar etimadı yüksək səviyyədə doğruldublar. Məktəbin 1 nəfər şagirdinin adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na salınıb.

Məktəbdə hazırda 1130 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 104 müəllim məşğul olur. Burada 61 sinif komplekti, 5 elektron lövhəli sinif, 57 kompüter dəsti ilə təmin olunmuş 3 kompüter otağı vardır. Keçilən dərslərdə dövlət rəmzlərinə, müstəqilliyimizə, Azərbaycan xalqının tarixinə, dilinə, adət və ənənələrinə, milli dəyərlərinə hörmət və qayğı aşılanır, şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsi diqqət mərkəzində saxlanılır. Kollektiv çalışır ki, məktəbdə fiziki cəhətdən hazırlıqlı, bilikli, eyni zamanda Azərbaycan dövləti və xalqı qarşısında öz məsuliyyətini dərk edən, Azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən gənclər yetişdirilsin. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu sözləri pedaqoji kollektivin devizinə çevrilib: ***"Bizim təhsilimizin məqsədi təkcə savadlı, intellektli gənclər yetişdirmək deyil, həm də yüksək mənəviyyatlı, Azərbaycan xalqının milli dəyərlərinə sadiq, vətənpərvər gənclər yetişdirməkdir. Bununla yanaşı, təhsilimizin məqsədi Azərbaycan vətəndaşını, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü yetişdirməkdir".***

Məktəbin qazandığı uğurlar belə deməyə əsas verir ki, pedaqoji kollektiv məsuliyyətini dərindən dərk edir, işini dahi rəhbərin adına layiq səviyyədə qurmağa səy göstərir. Elə bu səbəbdəndir ki, Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının statistik məlumatlarında Heydər Əliyev adına tam orta məktəb ölkəmizin ən yaxşı məktəbləri sırasında layiqli yerini qorumaqdadır.

Təhsil müəssisəsində şagirdlərin ideya-siyasi tərbiyəsinə, müasir düşüncə tərzinin formalaşdırılmasına, onların milli və ümumbəşəri dəyərləri mənimsəmələrinə, vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilir. Hər il əlamətdar günlərlə bağlı yaddaqalan tədbirlər keçirilir. Məqsəd isə ondan ibarətdir ki, şagirdlər intellektual səviyyədə biliklərə yiyələnməklə yanaşı, Heydər Əliyev ideyalarına, Heydər Əliyev yoluna, dövlətimizə, müstəqilliyimizə sadiq vətəndaşlar kimi yetişsinlər. Ümummilli liderimiz Heydər Əliyevlə bağlı keçirilən müsabiqələrdə məktəbin şagirdlərinin fəal iştirakını da xüsusi qeyd etməliyik. Hər il keçirilən müsabiqələrdə məktəb yeni uğurlara imza atır.

Məktəbdə hazırlanan elektron tədris vəsaitləri kompakt disklər şəklində muxtar respublikanın digər ümumtəhsil məktəblərinə də göndərilir. Kollektivin üzvləri ictimai-siyasi proseslərdə də öz fəallıqları ilə seçilirlər.

Təhsil ocağında ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin, siyasi irsinin şagirdlərə öyrədilməsində müxtəlif metodlardan istifadə olunur. Heydər Əliyev lektoriyalarında ulu öndərin Azərbaycan xalqı üçün həyata keçirdiyi cahanşümul tədbirlər, ümummilli liderin hər bir azərbaycanlı üçün örnək olan həyat və siyasi fəaliyyəti şagirdlərə aşılanır. Xüsusən də məktəbdə ulu öndərimizin hər kəsə örnək həyat və fəaliyyətini əks etdirən guşənin yaradılması şagirdlərin dövlətçilik və milli ideologiya ruhunda tərbiyə olunmalarına xidmət edir.

Burada yaradılmış ənənələrdən biri də məktəbin birinci sinfinə qəbul edilən şagirdlərin və XI sinfi bitirib müstəqil həyata qədəm qoyan məzunların ümummilli liderin abidəsi önündə and içmələridir. Məzunlar cari ildə məktəbin tarixinə yeni uğurlar yazıblar. Belə ki, 2015-2016-cı tədris ilində məktəbi bitirən 58 məzun ali məktəb tələbəsi adına layiq görülüb. XI$^{\text{b}}$ sinfi daha böyük uğura imza atıb. Belə ki, 19 məzunun hamısı tələbə adını qazanıb. Onlardan 2 nəfəri 500-dən, 2 nəfəri 600-dən yuxarı bal toplayıb. Cari ildə, ümumilikdə, 500-700 intervalında bal toplayan məzunların sayı 10 nəfərə çatıb. Qeyd edək ki, bu il məktəbi bir məzun qızıl, bir məzun isə gümüş medalla bitirib. Və onlar da etimadı yüksək nəticə ilə doğruldublar. Məzunlardan 2-si təhsilini Milli Aviasiya, 3-ü Sərhəd Qoşunları, biri Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik akademiyalarında davam etdirmək imkanı qazanıblar.

Yüksək bal toplayan məzunlardan biri – Nail Əliyevlə həmsöhbət olduq. O dedi:

– Məktəbdə oxuduğum illərdən yüksək bal toplayaraq ali məktəbə qəbul olan şagirdlərə həmişə həsəd aparmışam. Belə nəticəni qazanmaq mənə də qismət oldu. 647 bal toplayaraq Azərbaycan Dövlət Tibb Universitetinin Müalicə-profilaktika ixtisasına qəbul olundum. Uşaqlıqdan hərənin bir arzusu olduğu kimi, mənim də ən böyük arzularımdan biri həkim olmaq idi. Ağxalatlı insanlara hər zaman heyranlıqla baxmışam. Ancaq yüksək bal toplayaraq bu arzuma çata biləcəyimə... bu arzuma çata bilərdim. Özümə çox güvənirdim. Çünki müəllimlərimin verdiyi tapşırıqlarla yanaşı, özüm də əlavə kitablardan elmin sirlərinə yiyələnirdim. Çalışırdım ki, bilmədiyim nəsə qalmasın. İmtahanda suallarla tanış olanda düşündüm ki, çəkdiyim əziyyət boşa getməyib. Çətinlik çəkmədən sualları cavablandırdım. İmtahandan çıxanda artıq bilirdim ki, arzuma çatmağa çox az qalıb. İndi tələbəyəm. Tələbəlik dövründə də yaxşı oxuyaraq müəllimlərimin etimadını doğrultmağa çalışacağam.

Yeri gəlmişkən onu da qeyd edək ki, qazanılan uğurlarda başlıca sima olan müəllimlərin əməyi layiqincə qiymətləndirilib. Məktəbdə 4 müəllim Azərbaycan Respublikasının, 4 müəllim Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi fəxri adına layiq görülüb, 4 müəllim "Tərəqqi" medalı ilə təltif edilib, 1 müəllim "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibi olub.

*Qazanılan uğurlar belə deməyə tam əminlik yaradır ki, Heydər Əliyev adına tam orta məktəbin kollektivi bundan sonra da ölkəmizin qabaqcıl təhsil ocaqları sırasında tutduğu yeri qoruyacaq, məktəbin məzunları daha böyük uğurlara imza atacaqlar.*

**Fatma BABAYEVA**

# Naxçıvanda Milli Musiqi Günü qeyd olunub

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1995-ci ildə dahi bəstəkar Üzeyir Hacıbəyovun anadan olduğu günün – 18 sentyabrın "Milli Musiqi Günü" kimi qeyd olunması haqqında Fərman imzalamışdır. Artıq 21 ildir ki, sentyabrın 18-i ölkəmizdə "Milli Musiqi Günü" kimi qeyd olunur.*





Sentyabrın 17-də bu əlamətdar gün münasibətilə Naxçıvan şəhərindəki Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova tədbirdə çıxış edərək bildirmişdir ki, dahi bəstəkarımız Üzeyir Hacıbəyov Azərbaycanın mədəniyyət tarixinə professional musiqinin banisi, görkəmli ictimai xadim, jurnalist, fitri istedad sahibi kimi daxil olub. Ümummilli liderimiz Heydər Əliyev Üzeyir Hacıbəyov yaradıcılığını yüksək dəyərləndirərək deyirdi: ***"Xalqımızda milli dirçəliş, milli oyanış, milli özünüdərk hisslərinin formalaşmasında, inkişaf etməsində Üzeyir Hacıbəyovun əsərləri və onun bilavasitə fəaliyyəti böyük rol oynamışdır. Azərbaycanlılar – gənclər, vətəndaşlarımız məhz Üzeyir Hacıbəyovun əsərlərindən ruhlanaraq vətənimizi sevmişlər; onun musiqisini dinləyərək, onun əsərlərindən irəli gələn fikirlərin təsiri altına düşərək hiss etmişlər ki, Vətən, ölkə, millət hər bir insan üçün nə qədər əzizdir, doğmadır".***

Qədim tarixə malik olan Azərbaycan musiqi sənətinin inkişafı ümummilli liderimiz Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi hər iki dövrdə dinamik xarakter almışdır. Ulu öndər milli musiqimizin böyük simaları olan Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Tofiq Quliyev, Arif Məlikov kimi dünya səviyyəli bəstəkarlarımızın yaradıcılıqlarını yüksək qiymətləndirmiş, Azərbaycan mədəniyyətinin inkişafına böyük qayğı göstərmiş, bu sahədə ixtisaslı musiqiçi kadrların hazırlanmasına xüsusi diqqət yetirmişdir.

Qeyd olunmuşdur ki, bu gün respublikamızda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən milli musiqi sənətimizə qayğı və diqqət uğurla davam etdirilir. Azərbaycan musiqisinin inkişafı sahəsində böyük işlər görülür və genişmiqyaslı layihələr həyata keçirilir, dünyanın müxtəlif ölkələrində Azərbaycan mədəniyyəti uğurla tanıdılır və təbliğ edilir.

Vurğulanmışdır ki, Naxçıvan Muxtar Respublikasında da milli musiqimizin inkişafına hərtərəfli dövlət qayğısı göstərilir. Muxtar respublika mədəniyyəti özünün yeni inkişaf dövrünü yaşamaqdadır. Son illər Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə yeni musiqi məktəbləri tikilib istifadəyə verilmiş, Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının, Naxçıvan Musiqi Kollecinin maddi-texniki bazası gücləndirilmiş, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının, Aşıqlar Birliyinin fəaliyyəti təmin edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 29 mart tarixli "Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamına əsasən, ötən il musiqi ocağının yubileyi muxtar respublikamızda geniş qeyd olunmuş, yerləşdiyi bina əsaslı şəkildə yenidən qurulmuşdur. Musiqinin inkişafına göstərilən qayğı Naxçıvan bəstəkarlarının yaradıcılıq imkanlarını da genişləndirmişdir. Onlar yaradılan şəraitdən istifadə edərək yeni əsərlər yazır, Azərbaycan musiqi sənətini dəyərli əsərlərlə zənginləşdirirlər.

Uşaqların istedadının üzə çıxarılmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 19 aprel tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Filarmoniyasının da mühüm rolu vardır. Filarmoniyada xalq çalğı alətləri, kamera orkestrləri, mahnı və rəqs ansamblı, xor kollektivi fəaliyyət göstərir.

Nazir demişdir ki, bu gün muxtar respublikada milli musiqimizin təbliği istiqamətində də mühüm tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamından sonra Naxçıvan Aşıqlar Birliyi yaradılmışdır.

Muxtar respublikada fəaliyyət göstərən musiqi kollektivlərinin əməyi dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilir, səmərəli fəaliyyətlərinə görə musiqiçilərimiz Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, Prezident təqaüdü və mükafatlarına layiq görülürlər.

Əsl musiqinin məqsədi qəlbləri riqqətə gətirməkdir. Musiqi həm də insanları bir-birinə yaxınlaşdırmaq, doğmalaşdırmaq gücünə malikdir. Bu gün Azərbaycan musiqisi dünyanın qəbul etdiyi sənət nümunəsidir. Zaman dəyişir, zövqlər dəyişir, əsl musiqi isə əbədi yaşayır. Azərbaycan musiqisi bu gün böyük məhəbbətlə və ehtiramla sevilir, qorunur, yaşadılır və təbliğ edilir.

Sonra Milli Musiqi Gününə həsr olunmuş konsert olmuşdur.

Konsert proqramında Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin, Xalq Çalğı Alətləri Orkestrinin ifalarında dahi Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasından "Müqəddimə", "Koroğlu" operasından "Uvertüra", "Rəqs" musiqiləri səsləndirilmişdir. Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Elçin Nağıyevin, Hünər Əliyevin, gənc solist İlkin Abdullayevin ifalarında bəstəkarın "Sənsiz" romansı, "Qaragöz" mahnısı, "Arşın mal alan" operettasından "Əsgərin ariyası" oxunmuşdur. Milli Musiqi Gününə həsr olunmuş konsertdə xalq mahnıları da səsləndirilmişdir. Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Zülfüqar Mahmudov, solistlər Cəfər Tağıyev, Nərmin Hüseynova "Ay bəri bax", "Azərbaycan maralı", "Sevirəm səni" xalq mahnılarını və bəstəkar mahnılarını ifa etmişlər.

Konsertdə Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Tural Bağırov, Aşıq Şirin Şirinzadə sazda "Ruhani", "Şərili" aşıq havalarını ifa etmişlər.

Azərbaycan Respublikasının Əməkdar artisti Gülyanaq Fərzəliyevanın ifasında səslənən böyük bəstəkarımız Fikrət Əmirovun "Sevil" operasından "Sevilin ariyası", Səid Rüstəmovun "Haralısan" mahnısı, gənc müğənni İlkin Abdullayevin səsləndirdiyi Süleyman Ələsgərovun "Vətənimdir" romansı alqışlarla qarşılanmışdır.

Konsert dahi bəstəkar Üzeyir Hacıbəyovun "Cəngi" musiqi əsəri ilə başa çatmışdır.

Qeyd edək ki, Milli Musiqi Günü münasibətilə muxtar respublikanın rayon mərkəzlərində, mədəniyyət və təhsil müəssisələrində də tədbirlər keçirilmiş, konsert proqramları təşkil edilmişdir.

**Əli RZAYEV**

## ABŞ-ın Milvauki vilayətində “Şərq qapısı” qəzetinin 95-ci ildönümü münasibətilə hökumət bəyannaməsi qəbul edilmişdir

Amerikalı jurnalist və tədqiqatçı Peter Tase Naxçıvan Muxtar Respublikasının tarixi, abidələri, mədəniyyəti, müasir sosial-iqtisadi inkişafı ilə bağlı dünyanın nüfuzlu mətbuat orqanlarında yazılarla çıxış edir. Həmçinin o, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində də ardıcıl fəaliyyət göstərir.

Peter Tase Amerika Birləşmiş Ştatlarının Milvauki vilayətinin rəhbəri Kris Abeleyə “Şərq qapısı” qəzetinin 95-ci ildönümü münasibətilə rəsmi bəyannamə qəbul edilməsi haqqında müraciət etmişdir. Peter Tasenin bu müraciətini nəzərə alan ABŞ-ın Milvauki vilayətinin rəhbəri “Şərq qapısı” qəzetinin 95-ci ildönümü münasibətilə rəsmi bəyannamə qəbul etmişdir.

### Hökumət bəyannaməsi

Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikasının ***“Şərq qapısı”*** qəzeti ölkədə olan ən yaxşı kütləvi informasiya vasitəsidir;

1990-cı ilin əvvəllərindən başlayaraq ***“Şərq qapısı”*** qəzeti ölkədə müstəqilliyin qurulmasına tərəfdar olmuş və dəstəkləmişdir;

***“Şərq qapısı”*** qəzeti Naxçıvan Muxtar Respublikasına qarşı tətbiq olunmuş informasiya blokadasının azaldılmasında mühüm rol oynamışdır;

2000-ci ilin mart ayından başlayaraq ***“Şərq qapısı”*** qəzeti üçün yeni inkişaf mərhələsi başlamışdır;

22 iyul 2010-cu il tarixdən başlayaraq ***“Şərq qapısı”*** qəzetində yeniliklər tətbiq olunmuş və qəzetin rəngli nəşrinə başlanmışdır, hazırda qəzet həftədə beş dəfə nəşr edilir;

Bu məqsədlə mən, **Milvauki** dairəsinin rəhbəri **KRİS ABELE** Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında əlaqələri dəstəkləyən

***“Şərq qapısı” qəzetinin 95-ci ildönümünü***

təntənəli şəkildə qeyd edərək, bu ildönümü münasibəti ilə qəzetin təsisçisi, redaksiya heyəti və oxucularını təbrik edirəm.


Executive Proclamation

WHEREAS, the Serq Qapisi Newspaper of the Autonomous Republic of Nakchivan; Republic of Azerbaijan is one of the best mass media organization in the country; and

WHEREAS, from the beginning of the 1990s the Serq Qapisi Newspaper advocated and supported the establishment of independence; and

WHEREAS, the Serq Qapisi Newspaper played an important role in the reducing of the information blockade against the Autonomous Republic of Nakchivan; and

WHEREAS, a new development stage began in March 2000 for the Serq Qapisi Newspaper; and

WHEREAS, on July 22, 2010 the quality of the Serq Qapisi Newspaper was enhanced through innovative use of color printing and increased number of printed weekly editions to five; now therefore,

I, CHRIS ABELE, County Executive of Milwaukee County, do commemorate the

95th Anniversary of Serq Qapisi Newspaper

of Azerbaijan which supports the relations between the United States and Azerbaijan, and congratulate the newspaper's owners, employees and readers on this anniversary.

Chris Abele
Milwaukee County Executive

**Kris ABELE**
**Milvauki dairəsinin rəhbəri**

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi irsi qan xəstəliklərindən əziyyət çəkən və qan köçürülməsinə ehtiyacı olan digər xəstələrin müalicəsində istifadə olunmaq üçün qanvermə aksiyalarının təşkilini davam etdirir.*

## Könüllü qanvermə aksiyası keçirilib

Belə humanitar aksiyalardan biri sentyabrın 17-də Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidməti əməkdaşlarının iştirakı ilə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində keçirilib.

Donorların müayinəsini və qan götürülməsini həyata keçirən qan bankının həkimi Məmmədəli Həsənov ölkəmizdə qan köçürülməsinə ehtiyacı olan xəstələrin müalicəsinə göstərilən dövlət qayğısından, bu sahədə reallaşdırılan layihələrdən danışıb. Qeyd olunub ki, müasir təbabətdə həkimlərin əlində çoxlu müalicə vasitələri olmasına baxmayaraq, ən ağır vəziyyətlərdə xəstələrin həyatlarının xilas edilməsi üçün əvəzsiz rol oynayan canlı dərman donor qanıdır. Hemofiliya və talassemiya xəstələrinin müalicəsində qan komponentlərinin və preparatlarının istənilən vaxtda əlçatan olması çox vacibdir və donor qanına tələbatı artırır. Müxtəlif travma və yaralanmalar, mürəkkəb cərrahi əməliyyatlar və doğuşlar zamanı qan itirmələrdə, xroniki qanazlığında, qanın irsi və qazanılmış xəstəliklərində, onkoloji xəstəliklərdə, daxili orqanların müxtəlif xəstəliklərində qandan və ya qandan hazırlanmış preparatlardan geniş istifadə olunur. Bununla əlaqədar olan məsələlərin həllində qan donorluğunun, xüsusən təmənnasız donorluğun böyük əhəmiyyəti vardır. Muxtar respublikamızda da bu istiqamətdə tədbirlər ardıcıl olaraq həyata keçirilir.

Sonra xidmətin əməkdaşları “Sən də bir həyat ver” devizi altında qanvermə aksiyasına qoşulub. Əvvəlcə donorlardan arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün qan analizləri götürülərək testdən keçirilib. Bir neçə saat davam edən aksiyada 33 nəfər könüllü olaraq qan verib. Donorlardan götürülən 16 litr qanın qrupları müəyyənləşdirilərək ikili və üçlü torbalarda mərkəzin qan bankına təhvil verilib. Hazırda qan bankında xəstələrə köçürülmək üçün kifayət qədər ehtiyat yaradılıb. Tələbatdan artıq donor qanından plazma hazırlanaraq qan bankında saxlanılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Yurd yerlərimiz*

## Orda bir kənd var...

*Orda bir kənd var uzaqda*
*O kənd bizim kəndimizdir.*
*Gəzməsək də, getməsək də*
*O kənd bizim kəndimizdir.*

Türk şairi Əhməd Kutsi Tecerin bu misraları Qurtuluş savaşından sonrakı Türkiyə Cümhuriyyətində Anadolu kəndlərinin inkişafına diqqət çəkmək məqsədilə yazılmışdır. Sonralar dillər əzbəri olacaq və nəğməyə çevriləcək bu misralarda həm də Türkiyənin ümumi inkişafının yalnız Anadolu kəndlərinin inkişafı ilə mümkün ola biləcəyinə işarə edilirdi.

Əslində, bu formul bütün ölkələr üçün keçərlidir. Hər bir ölkənin dayanıqlı inkişafı onun insanının torpağa, yurda bağlılığından ciddi şəkildə asılıdır. “Kitabi-Dədə Qorqud” dilində ifadə etsək, yalnız baxılan bağların bağ olmaq ehtimalı var. Məhz bu müdrik fikirlərin işığında ötən 20 il ərzində Naxçıvanda da əsas diqqət kəndlərin inkişafına, infrastrukturun müasirləşdirilməsinə, bununla da, kənd insanının doğma yurd yerlərinə bağlılığının təmin olunmasına yönəldilib.

Sovet dönəmini görmüş və XX əsrin 90-cı illərinin əvvəllərində Naxçıvanın yaşadığı çətinliklərin şahidi olmuş oxucularımıza yaxşı məlumdur ki, o dönəmlərdə diqqətsizlik ucbatından neçə-neçə yurd yerlərimiz boşalmışdır. Sovetlər dönəmində bu diqqətsizlik kəndlərin bir çox hallarda məqsədli boşaldılmasına xidmət edirdi. XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində isə bu, yaranmış ümumi ictimai və iqtisadi böhrandan qaynaqlanırdı. Əgər ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında bu prosesin qarşısının alınması istiqamətində islahatlar həyata keçirilməsəydi, sonrakı dövrdə muxtar respublikada bu siyasət davamlı və məqsədli şəkildə davam və inkişaf etdirilməsəydi, yəqin ki, bu gün çoxsaylı ucqar kəndlərimiz eyni taleyi yaşayacaqdı.

Bütün hallarda muxtar respublika ərazisində mövcud olan və olmuş yaşayış məskənləri bizim tariximizdir və onları unutmamaq, onların haqqında bilgiyə sahib olmaq bizim milli kimlik borcumuzdur. Bu yazımızda Naxçıvanda bir zamanlar mövcud olmuş, ötən əsrin 50-60-cı illərində məqsədli diqqətsizlik ucbatından insansız yurd yerinə çevrilmiş iki kəndin – Şahbuz rayonunun Zərnətün və Xınzirək kəndlərinin sorağına çıxdıq. Bu gün yaddaşlarda və qəlblərdə adı yaşayan bu kəndlər uca dağlar qoynunda, Biçənək kəndinin yaxınlığında yerləşən tarixi yurd yerlərimizdir. Naxçıvandan Batabat yaylağına doğru hərəkət edərkən gözəlliklərlə dolu səfalı təbiəti ilə Zərnətün yolun solundan, bəlkə də, ulu hunların izlərini hələ də özündə yaşadan Hunzirək-Xınzirək isə yolun sağından boylanaraq sanki bu yolların keşiyini çəkir. Bu yurd yerlərinin yerləşdiyi mövqe, insanların məskunlaşması üçün əlverişli təbii-coğrafi şərait burada tarixən insanların məskunlaşmasına şərait yaratmışdır.

1728-ci ilə aid İrəvan əyalətinin müfəssəl dəftərində Xınzirək bölgənin əsas kəndlərindən biri kimi qeyd edilmiş, hətta bir neçə kəndi birləşdirən nahiyələrdən biri Xınzirək nahiyəsi adlandırılmışdır. Xınzirək və Zərnətün həm də Kolanı türk tayfalarının Naxçıvanda məskunlaşdığı yurd yerlərimizdən biri olmuşdur.

AMEA-nın müxbir üzvü, mərhum alim Adil Bağırovun yazdığına görə, hətta XIX əsrin ikinci yarısında qonşu kəndlərdən, xüsusilə Biçənəkdən bir sıra ailələr qonşu Zərnətün və Xınzirək kəndlərinə köçmüşdür.

Mənbələrdən birində qeyd olunur ki, elektrikləşdirmə və yollar salınması adı altında Naxçıvanın bir sıra kiçik kəndləri ləğv edilərək əhalisinin mərkəzlərə köçürüldüyü vaxt Şahbuz rayonunda kolanılıların da yaşadığı kiçik kənd olan Xınzirək kəndi ləğv olunmuş və əhalisi, əsasən, qonşu Biçənək kəndində yerləşdirilmişdir. Güman etmək olar ki, sovet dövləti tərəfindən Xınzirək və Qaraboya kəndlərinin də ləğv edilməsi azərbaycanlılar əleyhinə yönəldilmiş tədbirlərdən idi.

Yuxarıda da qeyd etdiyimiz kimi, bu yolların keşiyini çəkən kəndlərdən biri Xınzirəkdirsə, digəri səfalı təbiəti, mehriban və xeyirxah insanları ilə ad çıxarmış Zərnətündür. XX əsrin 50-ci illərində 30-35 evdən ibarət olan bu səfalı yurd yerimiz uca dağların qoynunda yerləşir. Bu kənddən baxanda Batabat gölləri ovuc içi kimi görünür. Bir zamanlar insanlar bu kəndin Tamam bulağından, Qaya bulağından, Qamışlı bulağından su içiblər, Misirxan babanın (Misirxan İsayev) balabanının səsindən feyzyab olublar, İman kişinin (İman Quliyev) tulumunun sədaları altında qol götürüb oynayıblar.

Zərnətündə böyüyüb boya-başa çatmış, tanınmış dialektoloq-alim, şair Əbülfəz Muxtaroğlu ötən günlərin xatirələrindən söz açaraq bizi də bir anlıq o zamanlara aparır. Deyir ki, yaz-yay aylarında Zərnətünə gələn qonaqlar Qaya bulağından axan suyun səsindən və gözəlliyindən doymazdılar, ən dəyərli qonaqlarına da məhz bu bulağın suyundan içirdərdi zərnətünlülər. Tamam bulağının gözəlliyi və el arasında yayılmış əfsanəsi isə tamam başqa aləmdir:

*Kəndimizdə bir bulaq var.*
*Adı Tamam bulağıdır.*
*Onun üstə kölgə salan.*
*Bir söyüdün budağıdır.*
*Tamam adlı bir qız qazmış*
*Gördüyümüz bu bulağı.*
*Sevgilisi Zakir isə*
*Yerə sancıb bir budağı.*
*Demişdi ki, əziz Tamam.*
*Qoy yadigar qalsın bizdən.*
*Bu bir bulaq, bu bir budaq.*
*Bizim təmiz eşqimizdən.*

***(Ə.Muxtaroğlu “Yadigar”)***

Zərnətünlülər həm də sağlamlıqları ilə seçilirmişlər. Bu, bir tərəfdən yurd yerinin səfalı təbiətindən qaynaqlanırdısa, digər tərəfdən bu dağlarda hər çiçəyin, hər otun sirrini bilən, türkəçarəyə – türkün təbabət çarəsinə dərindən bələd olan ağbirçəklərimizin sayəsində olmuşdur. “Bir Gülənbər nənə var idi, biçənəklərdə bitən hər gülün, hər çiçəyin xeyrini bilərdi, böyükdən-kiçiyə hər kəsi müalicə edərdi”, – deyir Əbülfəz müəllim. Zərnişan nənə isə Zərnətün kəndi ətrafında olan bütün yabanı bitkilərin yerini, harada bitdiyini, nə zaman yetişdiyini əzbərdən bilərdi.

Kənddə hər kəs eli ilə, tayfası ilə tanınardı. Kolanılılar, Qədimlilər, Quluuşağı, Paşauşağı elləri bu yurd yerini özlərinə məskən seçmişdilər.

Zərnətünün dünənindən danışarkən dərin bir köks ötürür Əbülfəz müəllim. Deyir ki, XX əsrin 50-ci illərinin sonlarında kənd baxımsız vəziyyətdə qaldı, sonralar Qaqanoviç adına Zərnətün kolxozu Biçənək kəndindəki “Qırmızı Oktyabr” kolxozu ilə birləşdirildi. Bundan sonra isə zərnətünlülər Biçənəyə, Məzrəyə, Vayxıra, hətta Bərdə rayonunun Qaraqoyunlu kəndinə köç etdilər.

Bir zamanlar otlaqlarında qoyun-quzu otlayan, bərəkətli əkin sahələrində taxıl və kartof bitən, evlərində ocaqları yanan, uzaqdan gələn insanların qoynuna üz tutduğu səfalı kəndlərimizdən biri olan Zərnətün beləcə kimsəsiz yurd yerinə çevrildi.

Zərnətün və Xınzirək ətrafındakı kəndlər – Biçənək, Ağbulaq, Gömür, Aşağı Qışlaq, Yuxarı Qışlaq və başqa kəndlər bu gün öz inkişafının ən yüksək mərhələsini yaşamaqdadır. Muxtar respublikamızda son 20 ildə həyata keçirilən möhtəşəm quruculuq işlərindən bu kəndlərin hər biri öz payını alıb. Bu yaşayış məntəqələrində məktəblər, həkim ambulatoriyaları, kənd və xidmət mərkəzləri tikilib, yollar abadlaşdırılıb, kəndlər fasiləsiz elektrik enerjisi, təbii qazla təmin olunub. Sadaladığımız kəndlərin hər birinin inkişafı, şəksiz ki, qüdrətli Azərbaycanın ümumi inkişafı ilə vəhdət təşkil edir. Blokada şəraitində reallaşdırılan Naxçıvan intibahından öz payını alan bu kəndlər kimi, inanırıq ki, bir gün tarixi yurd yerlərimiz olan Zərnətün və Xınzirək də öz payını alacaq, bu kəndlər qədim tarixi və səfalı təbiəti ilə nəinki yerli sakinlər üçün, eləcə də muxtar respublikamıza gələn qonaqlar üçün cazibədar bir guşəyə çevriləcəkdir.

**Elnur KƏLBİZADƏ**


### Tender elanı

İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin Naxçıvan Regional Əməliyyatlar Ofisinin əhatə etdiyi Babək rayonunun Məzrə icmasının tender komissiyası icma qrupunun hazırladığı “Yolun təmiri” adlı layihənin icrası məqsədilə keçirilən tenderdə iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

** Maraq məktubu*
** Nizamnamə*
** Maddi-texniki baza və insan resursları barədə məlumat*
** Son 3 ildə infrastrukturtipli layihələrdə iş təcrübəsinin olması*

Qeyd olunmuş sənədlər toplusunu 27 sentyabr 2016-cı il, saat 18[00]-a kimi tender komissiyasına təqdim etmək lazımdır.

***Babək rayonu, Məzrə kəndi, tender komissiyası icma qrupunun sədri Abdulla Həsənov***
***Əlaqə telefonu: (070) 958-33-52***

**Bildiriş**

“Sarar” İstehsalat Məmulatları Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN-0200001501) hüquqi adı dəyişdirilərək “Barama” Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilir.

**İtmişdir**

Rüstəmov Elnur Salman oğlunun adına verilmiş SQ-0018043 nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 701